# XALQ YAZIÇISI ƏLİ VƏLİYEV VƏ MƏNƏVİ MƏDƏNİYYƏTİMİZ



*Mahmud ALLAHMANLI*
*filologiya elmləri doktoru,*
*professor*

Yazıçı və xalq yaradıcılığı probleminin araşdırılması həmişə ədəbi-nəzəri fikrin diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə müxtəlif səpkili araşdırmalar aparılmış və onun məram-məqsədi aydınlaşdırılmağa çalışılmışdır. Folklorşünasların, etnoqrafların, musiqişünasların və s. apardığı monoqrafik təhlillər bunun bariz örnəyidir. N.Gəncəvi, A.Ərdəbili, Ə.Təbrizi, Q.Bürhanəddin, Ş.İ.Xətai, M.Füzuli, M.Əmani, S.Təbrizi, M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir, M.F.Axundov, Ə.Nəbati, M.Ə.Sabir, Y.V.Çəmənzəminli, S.Vurğun, M.Müşfiq, O.Sarıvəlli, İ.Şıxlı, H.Arif, Z.Yaqub və s. sənətkarların yaradıcılığı xalqın zəngin milli-mənəvi dəyərlərinin əksi baxımından geniş araşdırmaların mövzusu olmuşdur. Bahar Tofiq qızı Əhmədovanın "Mənəvi mədəniyyətimiz xalq yazıçısı Əli Vəliyevin yaradıcılığında" (Bakı: Avropa, 2020) monoqrafiyası da bu uğurlu yaradıcılıq ənənəsinin davamı olaraq meydana çıxmışdır.

Xalq yazıçısı Ə.Vəliyev XX əsr Azərbaycan ədəbiyyatının zənginliyində özünəməxsus yeri və mövqeyi olan şəxsiyyətlərdəndir. "Hekayələr" (1950), "Qəhrəman" (1954), "Çiçəkli" (1955), "Zəngəzur qartalları" (1955), "Anaqız" (1965), "Bir cüt tərlan" (1968), "Samovar tüstülənir" (1971), "Budağın xatirələri" (1974), "Yeni həyat" (1975), "Zamanın ulduzları" (1976), "Qarabağda qalan izlər" (1977), "Ötən günlər" (1981) və s. kitabları xalq yaradıcılığı ənənələrindən yararlanmaqla yazılmış və böyük oxucu kütləsinin rəğbətini qazanmışdır. Nağıl, əfsanə, rəvayət, atalar sözü, məsəl, nəğmə, bayatı, dastan, inam və etiqadlar, xalq mərasimləri və s. çeşidli örnəklərdən qaynaqlanan müxtəlif səpkili hekayə, povest və romanları etnoqrafik mədəniyyəti və tarixi yaddaşı öyrənib tədqiq etmək baxımından mühüm aktuallıq kəsb edir. B.Əhmədova da bunları nəzərə alaraq sistemli təhlillər aparmış, ayrı-ayrı əsərlərində özünü göstərən etnoqrafik materialları bir araya gətirməyə çalışmışdır.

Dünya ədəbiyyatının ən möhtəşəm abidələri məhz xalq yaradıcılığının zənginlərindən yararlanmaqla yaradılmışdır. Bütün sənətkarlar bu xəzinədən müxtəlif səviyyədə istifadə etmişlər. Onların görünüşü isə bəzi sənətkarlarda alt qatda və həm də epizodik xarakteri ilə faktlaşırsa, bir sıra sənətkarlarda bu mahiyyət məsələsi olaraq üst səviyyəyə qalxır. Ə.Vəliyevin yaradıcılığının məzmun və mahiyyətində etnoqrafik mədəniyyətdən yaralanma bütün aspektləri ilə aparıcı mövqeyə çıxır. Kitaba ön söz yazmış akademik T.Bünyadov bu məqamlara xüsusi həssaslıq göstərərək yazır: "Xalqımızın mənəvi mədəniyyəti ilə bağlı çox qiymətli detallar, zəngin məlumatlar klassik yazıçı və şairlərimizin əsərlərində xüsusi yer tutur. Belə yazıçılardan biri də xalq yazıçısı Əli Vəliyevdir. Gözləri ilə od götürən, həyatın ən çətin sınaqlarından, təlatümlərindən üzü ağ çıxan Ə.Vəliyev daima xalqın içərisində gəzmiş, onların gün-güzəranının canlı şahidi olmuşdur. Ona görə də onun əsərləri təbiiliyi, dilinin şirinliyi, hadisələrin reallığı ilə diqqəti daha çox cəlb edəndir. Məhz bu müsbət xüsusiyyətlərinə görə ədibin yaradıcılığının tarixi-etnoqrafik aspektdə araşdırılması məqsədəuyğun sayılmışdır". Doğrudan da, Ə.Vəliyevin yaradıcılığında əksini tapan etnoqrafik bilgilər onun yaşadığı həyatın özündən gəlməklə, həm də ciddi müşahidələrə əsaslanma baxımından uğurlu təsəvvür formalaşdırmışdır.

"Xalq bayramları", "Xalq yaradıcılığı", "Din", "Qonaqpərvərlik", "Musiqi", "Oyun və əyləncələr", "Xalq təbabəti" başlıqları altında aparılan təhlillər hər birisi sistemli yanaşmaların nəticəsi olaraq görkəmli yazıçının əsərlərində özünə yer alan zənginlikləri və onun mahiyyətində olanların nələrlə səciyyələnməsini aydınlaşdırmaq məqsədi daşıyır. Azərbaycan xalqı keçib gəldiyi tarixi yolda həmişə idealları, etnik şüura bağlanan milli-mənəvi dəyərlərə bir toplum olaraq üstünlük verməklə dövrün və zamanın sınaqlarından çıxmışdır. Bir növ onların həyatının bir hissəsi olaraq qəlibləşən ritualları həm də bir mənəviyyat məsələsi olaraq nəsildən-nəsilə daşınmışdır. Mövsüm və məişət bayramlarının zənginliyində nəzərə çarpan epizodik məqamlar hər birisi öz bətnində həmin təsəvvürləri aşılamaq və onun üzərində yaşam tərzini qurmaq amalına köklənmişdir. Məsələn, Novruz bayramı özlüyündə mərasimlər toplusudur və xalqımızın ən əziz bayramıdır. Ulularımız düşüncəsində, qəlbində, həyatında nələr varsa hamısını orada rəmzləşdirməklə ona yaşam haqqı vermişdir. Səməni göyərdilməsi, bir ay əvvəldən mərasimə hazırlıq işlərinin başlanması, çərşənbələr və onun adlanmasındakı məzmun, su falı, Novruz süfrəsi, tonqal qalanması, qapı pusma, yumurta rənglənməsi (yumurta döyüşdürülməsi), bayramlaşma, Novruz axşamı və s. hamısı çox əski təsəvvürləri əhatələməklə xalqın əxlaq, mənəviyyat kodu olaraq yaşarlıq qazanmışdır.

Ə.Vəliyev xalq həyatına bələd və həm də ona yaradıcılığında son dərəcədə həssaslıq göstərən yazıçılardandır. Bir növ əsərlərinin qaynağını təşkil etməklə, həm də hekayə, povest, romanlarına əlavə ovqat qatmışdır. Tədqiqatçı xüsusi həssaslıqla vurğulayır ki, "Novruz bayramının mahiyyəti, məzmunu Ə.-Vəliyevin əsərlərində çox aydın şəkildə təcəssüm etdirilmişdir". Ədibin "Samovar tüstülənir" hekayə və povest toplusunda bu daha təfərrüatlı, həm də qabarıq şəkildə əksini tapmışdır. Ə.Vəliyev Novruz bayramını xoşbəxtlik, şənlik bayramı adlandırır və əlavə edir ki, "kəndlərdə, şəhərlərdə hamı qaynar işlə, məhsuldar əməklə, qızğın zəhmətlə məşğuldur. Çalıb-çağırmaq, deyib gülmək, musiqi sədaları, nəğməkarların məlahətli avazları hər guşədən ucalır. Evlər təmizlənmiş, əşya və müxəllifat günə verilmiş, bayram süfrəsi hazırlanmış, qonaqları qəbul etmək üçün heç şəyə müzayiqə edilməmişdir. Hamı təzə paltar geyinmiş, bayram əhval-ruhiyyəsi hər yerdə mövcuddur". Tədqiqatçı məhz bu faktlar əsasında Ə.Vəliyevin əsərlərini bir araya gətirmiş və sistemli şəkildə təhlillər aparmışdır.

Xalq yazıçısı Ə.Vəliyev əsərlərində xalqın mənəvi dəyərlərini, məişətini, bütünlükdə həyat tərzini diqqət önünə gətirməklə, həm də onun tərbiyəvi mahiyyətinə həssaslıq göstərmişdir. Burada təkcə etnoqrafik yaddaş deyil, eyni zamanda onun sözlü ədəbiyyat məsələsindən yüksək səviyyədə yararlanılmışdır. Xalqın zəngin şifahi yaradıcılığı, onun rəngarəng janr örtüyü, bayatı, nəğmə, əfsanə, rəvayət, atalar sözü, məsəl, sayaçı sözləri, nağıl, dastan və s. bir bütöv olaraq özünə yer alır. B.Əhmədova bunlardan çıxış edərək qeyd edir ki, "Ə.Vəliyevin Qarabağ əhalisindən toplayıb yazıya gətirdiyi bayatılarda xalqımızın ailə məişəti, adət-ənənəsi, maddi və mənəvi mədəniyyəti, təsərrüfat həyatı, dünyagörüşü, həsrəti, vüsalı, sevgisi, sevinci, dərdi, kədəri və s. əks olunmuşdur. Bəzi istisnaları nəzərə almasaq demək olar ki, bu bayatıların əksəriyyəti Azərbaycanın bütün bölgələrinə yayılmışdır. Sinəsi ağı, bayatı, sayaçı nəğmələri, atalar sözləri, el məsəlləri ilə dolu olan, aşıb-daşan, xalq dilini mükəmməl bilən yazıçı bu bayatılardan yerli-yerində istifadə etmiş, onu dönə-dönə əsərlərinə salmaqla ömrünü uzatmış, yenidən yaddaşlara, xalqın dilinə, istifadəsinə qaytarmışdır". Tədqiqatçının "Qarabağda qalan izlər", "Zamanın ulduzları", "Qəhrəman", "Budağın xatirələri" və s. əsərlərindən gətirdiyi örnəklər özlüyündə regionun lokal səciyyəsini və xalq məişətinin hansı dəyərlərə köklədiyini bir daha aydınlıqla ortaya qoyur. "Bir gözəl gülümsündü, ağzından gülab axdı" və yaxud da "sinəm tabutun olsun, saçın ilə sarı qız" və s. deyimlər bayatı ruhunun yaşarlığında etnomədəniyyətin nələrlə səciyyələndiyini bir daha diqqət önünə gətirir.




Qurbani, Lələ, Sarı Aşıq, Abdalgülablı Valeh, Aşıq Səməd, Aşıq Qənbər və s. kimi görkəmli ustadların yaşayıb yaratdığı Qarabağ mədəniyyətimizin beşiyi olan məkanlardandır. Xalq yazıçısı Ə.Vəliyev də bu zənginlikdə formalaşmaqla, həm də öz əsərlərində onun ifadəsi, yaşamı baxımından gərəkli işlərə imza atmışdır. B.Əhmədova da etnoqrafik örnəkləri zərrə-zərrə bir araya gətirmiş və onların ehtiva etdiyi məzmunu araşdırmağa çalışmışdır. "Atalar sözü və məsəllər", "İnamlar və ovsunlar", "Alqışlar, qarğışlar", "Əfsanələr", "Oğvçu Pirim", "Eşqabdal ocağı", "İtmiş üzük", "İsa-Musa quşu", "Ağam gəldi" və s. başlıqlar altında aparılmış təhlillər region etnoqrafiyasının mahiyyətini aydınlaşdırmaq səciyyəsi daşıyır. "Yaradıcılığında zəngin xalq xəzinəsindən geniş şəkildə istifadə edən, bütün varlığı ilə doğma Vətən torpağına bağlı olan, obrazlı, koloritli dili ilə seçilən, sevilən Ə.Vəliyevin əsərlərində əfsanələrə yer verməsi təsadüfi deyil. Onun xalqın ailə məişəti və təsərrüfat həyatı ilə bağlı yazıya aldığı əfsanələr etnoqrafik baxımdan maraq doğurur". Çünki bunlar xalqın həyatının, məişətinin bir parçası olaraq bədii düşüncəyə istiqamət verməklə, həm də funksional səciyyəsi ilə nəzər-diqqəti cəlb etmişdir.

"Din", "Qonaqpərvərlik", "Musiqi", "Oyun və əyləncələr", "Xalq təbabəti" başlıqları altında aparılan təhlillər bir istiqamətdə yazıçının yaradıcı istedadını, zəngin folklor səviyyəsindən hansı səviyyədə bəhrələnməsini ortaya qoyursa, digər istiqamətdə xalq ədəbiyyatının, etnoqrafik mədəniyyətin nə qədər möhtəşəmliyini aydınlaşdırır. Məsələn, müqəddəs kitabımız "Quran", dini mərasimlər, xalq arasında bu mərasimlərin keçirilməsi, dini rəvayətlər, hədislər, din tarixi, müqəddəs yerlərin ziyarəti və s. haqqında verilən bilgilər Ə.Vəliyevin əsərlərində müxtəlif səviyyədə özünə yer almışdır. Tədqiqatçı bunların təhlilini verməklə mahiyyətin açılışına həssaslıq göstərir və həm də etnoqrafik mədəniyyətin yaratdığı bir ovqatı bir bütöv olaraq diqqət önünə gətirir.

Kitabda diqqəti cəlb edən məsələlərdən biri "Qonaqpərvərlik" bölməsidir. Ümumiyyətlə, xalqımızın zəngin tarixində, etnik yaddaşında xeyirxahlıq, əl tutmaq, kimsəsizə sahib durmaq və s. kimi dəyərlər həmişə uca tutulmuşdur. Bu məsələ ilə bağlı səyyahların, coğrafiyaçıların, ölkəmizə müxtəlif məqsədlərlə səfər edən xarici elm, mədəniyyət adamlarının maraqlı fikir və mülahizələri vardır. Ə.Vəliyevin yaradıcılığı da elobada qonağa hörmət və qayğının əksi baxımından mühüm əhəmiyyət daşıyır. Elə araşdırmada da qonaqpərvərliyin bir bölmə olaraq ayrılması sırf zərurətdən irəli gəlir. "Xalqımıza başucalığı gətirən, milli-mənəvi dəyər sistemimizdə özünəməxsus yeri olan və günümüzdə də mühüm tərbiyəvi əhəmiyyət kəsb etməsi ilə səciyyələnən qonaqpərvərlik adətləri ailə məişətimizin nümunə göstəriləcək parlaq səhifələrindəndir". Xalq yazıçısı Ə.Vəliyevin yaradıcılığı bütünlükdə mənəvi dəyərlərimizin kifayət qədər əksi ilə səciyyələnən qaynaqlardandır. Bütün bunlar milli-mənəvi mədəniyyətimizin bir problem olaraq yazıçı və xalq yaradıcılığı kontekstində daha gərəkli və həm də sistemli işlərin aparılması zərurətini diqqət önünə gətirir.